# Azərbaycan elektroenergetikası sürətli inkişaf dövrünü yaşayır



***Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə ölkənin enerji sektorunun inkişafına daim diqqət və qayğı göstərib. Ötən müddətdə bu sahədə genişmiqyaslı islahatlar gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri böyük vüsət alıb. Dövlətimizin başçısının tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində energetika sistemi əsaslı şəkildə modernləşdirilib, "itirilmiş" generasiya gücləri bərpa edilib. Elektroenergetika sahəsində fəaliyyətin dayanıqlılığı artırılıb, texnoloji bazası gücləndirilib və infrastrukturu təkmilləşdirilib. Bütün bunların nəticəsidir ki, Azərbaycan Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda "əhalinin elektrik təchizatı səviyyəsi" üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında qeydə alınıb.***

Respublikanın enerji sektorunun bugünkü inkişafında bir məqam xüsusilə diqqət çəkir. Bu, bərpaolunan enerji layihələrinin reallaşdırılması ilə bağlıdır. Belə bir məsələyə xüsusi önəm verilməsi təsadüfi deyil. Çünki Azərbaycan bərpaolunan enerji mənbələri ilə zəngin resurslara malik ölkələrdəndir. Buna görə də Günəş və külək enerjisi potensialının səmərəli istifadəsini təmin etmək üçün 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması mühüm vəzifə olaraq müəyyənləşdirilib. Həmçinin 2030-cu ilədək təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulub. Bu vəzifənin isə özəl investisiyalar hesabına reallaşdırılması planlaşdırılıb.

Xatırladaq ki, Azərbaycanın və eləcə də işğaldan azad olunan ərazilərin böyük alternativ enerji potensialı var. Energetika Nazirliyinin hesablamaların görə, ölkəmizdə günəşli günlər il ərzində 2500-3200 saat arasında dəyişir. Bakı və ətraf ərazilərdə ilin orta hesabla 250 günü küləkli olur. Nazirliyin hesablamalarında Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27 min MVt dəyərləndirilir. Bunun 23 min MVt-ı günəş, 4 min MVt-ı isə külək enerjisinin payına düşür. Qarabağ bölgəsinin də alternativ enerji potensialı kifayət qədər yüksəkdir. Nazirliyin qiymətləndirmələrinə görə, işğaldan azad olunan ərazilərimizin günəş enerjisi potensialı 4 min MVt, külək enerjisi potensialı isə 500 MVt-dır. Günəş enerjisi əsasən, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Azərbaycanda yerli su ehtiyatlarının 25 faizinin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı da əlverişli sayılır.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan elektroenergetikası sürətli inkişaf dövrünü yaşayır

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, bu il iyunun 3-də Energetika Nazirliyi və bp şirkəti arasında Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə Günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsi imzalanıb.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilməsi də ölkənin enerji sektorunun inkişafında tarixi hadisədir. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edərkən, bu barədə deyib: “Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur… 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək”.

Dövlətimizin başçısı bu böyük layihənin icraçısı barədə də fikirlərini diqqətə çatdırıb. Ölkə rəhbəri Qaradağ Günəş Elektrik Stansiyasını tikəcək müəssisənin dünyada bu sahədəki səmərəli fəaliyyəti ilə tanınan və bu sahədə zəngin təcrübəsi olan “Masdar” şirkəti olduğunu bildirərək, onun Azərbaycana sərmayə qoymasını çox təqdirədici bir hal kimi dəyərləndirib. Prezident İlham Əliyev bunun səbəbini Azərbaycanda xarici sərmayə üçün çox cəlbedici bir şərait yaradılması ilə əlaqələndirib: “Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur…”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, hazırda Azərbaycanda bu proseslər uğurla davam edir. Bütün bunlar isə ölkəmizə xarici investisiya qoyuluşuna müsbət zəmin yaradır. Son illərdə Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların 60 milyard dollara çatması da elə bunun nəticəsidir.



Rəsmi məlumata görə, 2021-ci ilin doqquz ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar təqribən 580 milyon dollar təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə bir neçə dəfə çoxdur.

Xatırladaq ki, Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirmək üçün bir sıra tədbirlər həyata keçirilib. Belə ki, son illərdə investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, “Yaşıl dəhliz”, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə”, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması, həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzinin olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən “açıq qapı” siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib. “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyaların qorunması haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunların və bir sıra normativ sənədlərin qəbulu məhz bu məqsədi daşıyıb.

Bundan savayı, Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı çoxsayda saziş imzalanıb. Avropa İttifaqının 20-dən çox üzv ölkəsi ilə respublikamız arasında ikiqat vergitutma aradan qaldırılıb.

Prezident İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimindəki çıxışında hazırda Azərbaycanın dünyada xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkə kimi tanındığını da xatırladaraq, bu ilin yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən nüfuzlu “ACWA Power” şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyulduğunu, daha sonra isə “Azərenerji” tərəfindən inşa edilən 385 meqavat gücündə elektrik stansiyasının istifadəyə verildiyini vurğulayıb. Bu, bərpaolunan enerji növlərinin inkişafının prioritet istiqamət olduğunu göstərir.

Ölkə rəhbəri aparılan hesablamalara əsaslanaraq, Qarabağ və Şərqi Zəngəzurda Günəş, külək enerji növlərinin istehsalının təxminən 9-10 min meqavat həddində olduğunu, artıq həmin potensialın gerçəkləşdirilməsinə başlanıldığını qeyd edib.

Onu da qeyd edək ki, stansiyanın qısa zaman ərzində işə salınacağı qarşıya mühüm vəzifə kimi qoyulub. Prezidenti İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən növbəti il artıq bu obyektin istismara veriləcəyi ilə bağlı daha bir mərasimin keçiriləcəyinə əminliyini ifadə edib. Dövlətimizin başçısı daha sonra deyib: “Bu, həqiqətən də böyük və mühüm əhəmiyyət kəsb edən tədbirdir. Çünki bu stansiya Azərbaycanda tikiləcək belə miqyasda olan ilk Günəş elektrik stansiyasıdır. Bu stansiya bu sahədə ən aparıcı şirkətlərdən biri tərəfindən inşa ediləcək və çıxışımda qeyd etdiyim kimi, dost ölkədən olan şirkət tərəfindən. Bu, çox vacibdir. Düşünürəm ki, bu, bizim əməkdaşlığımızın yalnız başlanğıcıdır. Əminəm ki, başqa sahələrdə olduğu kimi, bərpaolunan enerji sahəsində də biz bir çox imkanları taparaq kəşf edəcəyik”.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 17 mart.- S.1;3.